# Azərbaycanda demokratik, şəffaf, ədalətli, seçici fəallığı ilə müşahidə olunan parlament seçkiləri baş tutdu

## Sumqayıt şəhərində parlament seçkiləri demokratik, şəffaf şəkildə keçib və yüksək seçici fəallığı ilə müşayiət olunub










Ölkəmizin hər yerində olduğu kimi Sumqayıt şəhərində də parlament seçkiləri yüksək seçici fəallığı ilə müşayiət olunub. Vurğulayaq ki, Sumqayıt şəhəri üzrə dörd seçki dairəsi fəaliyyət göstərir. 41 saylı Sumqayıt birinci seçki dairəsində 33 seçki məntəqəsi üzrə 43149, 42 saylı Sumqayıt ikinci seçki dairəsində 38 seçki məntəqəsi üzrə 42895, 43 saylı Sumqayıt üçüncü seçki dairəsində 34 seçki məntəqəsi üzrə 43850, 44 saylı Sumqayıt-Xızı seçki dairəsində 43 seçki məntəqəsi üzrə 41232 seçici qeydiyyata alınıb.

41 saylı Sumqayıt birinci seçki dairəsinin 1 saylı məntəqəsində proses olduqca şəffaf şəkildə keçirilib. Seçkini müşahidə edən müşahidəçilər bildiriblər ki, seçki prosesinə heç bir kənar müdaxilə edilməyib və qanundan kənar addımlar atılmayıb. Məntəqə Seçki Komissiyasının (MnSK) sədri Mehdi Ağayev bildirib ki, seçici aktivliyi kifayət qədər yüksəkdir. MnSK üzvü Nuranə Aslanova qeyd edib ki, seçki azad və ədalətli şəraitdə keçib, seçicilərin azad şəkildə səs verməsi üçün bütün şərait yaradılıb.

42 saylı Sumqayıt ikinci seçki dairəsinin 32 saylı seçki məntəqəsində də Milli Məclisə seçkilər uğurla keçib. MnSK sədri Adilə Süleymanova bildirib ki, seçicilər azad şəkildə səsvermədə iştirak edib, öz namizədlərinə səs veriblər. Seçkilərin gedişini izləyən müşahidəçilər Şamama Məlikova, Qəmər Məmmədova və Sadiq Məmmədov qeyd ediblər ki, gün ərzində yüksək seçici fəallığı müşahidə edilib və seçkilərin gedişinə heç bir müdaxilə olunmayıb. Həmin məntəqədə səs verən seçici Teymur Mirzəyev hər zaman ölkə Prezidentini və Onun Sədri olduğu Yeni Azərbaycan Partiyasını dəstəklədiyini bildirib.

43 saylı Sumqayıt üçüncü seçki dairəsinin 2 saylı seçki məntəqəsində də seçkilər uğurla keçirilib. MnSK sədri Maya Abdulova bildirib ki, gün ərzində yüksək seçici fəallığı müşahidə olunub və vətəndaşlar sərbəst şəkildə öz seçimlərini ediblər. MnSK üzvü Gülnarə Ağayeva seçicilərin azad, şəffaf və ədalətli şəkildə seçim etmələri üçün şərait yaradıldığını deyib. Seçkilərin gedişini izləyən müşahidəçilər Tahir Quliyev və Cəfər Məmmədov da məntəqədə heç bir neqativ halın baş vermədiyini və seçicilərin rahat şəkildə öz seçimini etməsi üçün qanunun tələblərinə uyğun olaraq bütün şəraitin yaradıldığını bildiriblər.

43 saylı Sumqayıt üçüncü seçki dairəsinin 3 saylı seçki məntəqəsinin MnSK sədri Reyhan Yunisova da seçici aktivliyinin yüksək olduğunu deyib. Həmin məntəqədə seçkini izləyən müşahidəçilər də qeyd ediblər ki, səsvermə prosesində heç bir qanun pozuntusuna rast gəlməyiblər. Həmin məntəqənin önündə "Exit-Poll" keçirən Rəy Monitorinq Mərkəzinin əməkdaşı Xalidə Feyziyeva da səs verən seçicilərin sonradan "Exit-Poll"un təqdim etdiyi anketi doldurduqlarını bildirib.

43 saylı Sumqayıt üçüncü seçki dairəsinin 19 saylı seçki məntəqəsində də yüksək seçici fəallığı müşahidə olunub. MnSK sədri İlahə Kazımzadə səsvermədə heç bir qanun pozuntusuna yol verilmədiyini bildirib.

44 saylı Sumqayıt-Xızı seçki dairəsinin 1 saylı məntəqəsinin MnSK sədri Qasım Qasımov məntəqənin səhər saatlarından seçicilərin üzünə açıldığını diqqətə çatdırıb. Onun sözlərinə görə, heç bir qanun pozuntusu qeydə alınmayıb. Həmin məntəqədə seçkiləri müşahidə edən müşahidəçilər də prosesə heç bir kənar müdaxilə olunmadığını bildiriblər. Qeyd edək ki, 44 saylı Sumqayıt-Xızı seçki dairəsinin 1 saylı məntəqəsində ATƏT-in müşahidə missiyasının nümayəndələri - İsveçdən olan parlamentari Marqarita Sederfelt və Avstriyadan olan parlamentari Kristian Hafeneker seçkilərin gedişini izləyiblər.

**Pərviz SADAYOĞLU**

## Ağstafada parlament seçkiləri seçici fəallığı ilə müşayiət olunub

9 fevral parlament seçkiləri respublikamızın digər bölgələrində olduğu kimi Ağstafa rayonunda da seçici fəallığı ilə müşahidə olunub. Bu barədə YAP Ağstafa rayon təşkilatından məlumat verilib.




Məlumatda bildirilib ki, 108 saylı Ağstafa seçki dairəsi üzrə 38 seçki məntəqəsi mövcuddur, 8 məntəqədə vebkamera quraşdırılıb. Seçki dairəsi üzrə 44 min 573 seçici qeydiyyatdadır.

Verilən məlumata görə, hər bir seçki məntəqəsinə YAP tərəfindən müşahidəçi və məşvərətçi təyin olunub. Müşahidəçilərin rəylərinə əsasən, səsvermənin gedişində hər hansı qanun pozuntusu qeydə alınmayıb. **"Səsvermə prosesi seçki qanunvericiliyinə uyğun olaraq davam etdirilib. Vətəndaşlar sərbəst şəkildə seçki hüququndan istifadə edərək öz seçimlərini ediblər"**, - deyə məlumatda qeyd olunub.





## Qaradağ rayonunda da seçkilər azad və demokratik şəraitdə baş tutub

*Seçicilər və səsverməni izləyən müşahidəçilər prosesin gedişindən razı qaldıqlarını ifadə ediblər*








Dünən Azərbaycanda Milli Məclisə növbəti seçkilər keçirilib. Qaradağ rayonunda da səsvermə prosesi tam ədalətli və şəffaf olub. Səsverməni izlədiyimiz 15-dən artıq məntəqədə istər seçicilər, istərsə də komissiya üzvləri və müşahidəçilər seçkilərin təşkilindən razılıqlarını ifadə ediblər və bu seçkilərin azad, ədalətli, demokratik keçirilməsi üçün hər cür şərait yaradıldığını vurğulayıblar.



Seçkiləri müşahidə edərkən Yeni Azərbaycan Partiyası (YAP) Qaradağ rayon təşkilatı Seçki Qərargahında da olduq. Qərargahda işgüzar mühit, yüksək əhval-ruhiyyə hökm sürürdü. Seçkilərin gedişi ilə bağlı mütəmadi məlumatlar aldıqlarını deyən YAP Qaradağ rayon təşkilatı Seçki Qərargahının üzvləri bildiriblər ki, Milli Məclisə seçkilərin yüksək demokratik standartlara uyğun, qanunvericiliyin tələblərinə müvafiq şəkildə keçirilməsi üçün hər cür şərait yaradılıb. Qeyd olunub ki, bundan əvvəlki seçkilərdə olduğu kimi, rayon seçiciləri məntəqələrə gələrək öz iradələrini ifadə edib, istədikləri namizədə səs veriblər.

Qaradağ rayonunda seçkiləri izləyən müşahidəçilər qeyd ediblər ki, ölkəmizdə formalaşan demokratik şəraitə uyğun olaraq xalqımız növbəti dəfə öz seçimini edir. Seçicilərin fəallığı, şəffaflığa riayət olunması, məntəqələrin təhlükəsizliyinin yüksək səviyyədə qorunması xüsusilə qeyd olunmalıdır. Bu isə ölkəmizdə demokratik seçki mühitinin formalaşdığını bir daha təsdiqləyir. Həmçinin qeyd olunub ki, səsvermənin gedişi zamanı heç bir qanun pozuntusu müşahidə edilməyib, seçici fəallığı qənaətbəxş səviyyədə olub. Müşahidəçilər seçkilərin yüksək səviyyədə təşkil olunması üçün hər cür şəraitin yaradıldığını vurğulayıblar.

Rəyini soruşduğumuz seçicilər də prosesin tam qanunauyğun şəkildə və demokratik prinsiplərə müvafiq həyata keçirildiyini və heç bir qanun pozuntusu baş vermədiyini bildiriblər.

Qeyd olunub ki, seçki məntəqələrində səsvermənin demokratik və şəffaf keçirilməsi üçün hər bir şərait yaradılıb.

## Səbail rayon sakinləri parlament seçkilərində fəallıq nümayiş etdiriblər

Səbail rayonunda da Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər demokratik və yüksək seçici fəallığı şəraitində keçirilib. Səbail rayonu seçiciləri səhər saat 8:00-dan etibarən rayon ərazisində fəaliyyət göstərən məntəqələrə gələrək, gün ərzində azad və şəffaf şəkildə səsvermədə iştirak ediblər.



YAP Səbail rayon təşkilatından verilən məlumata görə, rayon ərazisini əhatə edən 29 saylı Səbail və 23 saylı Nəsimi-Səbail seçki dairələrinin tərkibində ümumilikdə 40 məntəqə, həmçinin seçki dairələrinin ərazisində məskunlaşan məcburi köçkünlərin daxil olduğu məntəqələr fəaliyyət göstərir.

Şəffaflığın təmin olunması məqsədilə rayon ərazisindəki əksər məntəqələrdə veb-kameralar quraşdırılıb. Səbail rayon seçki məntəqələrində müşahidəçilərin internetdən veb-kameraların vasitəsilə məntəqələri izləməsi mümkün olub. Bütün məntəqələr Mərkəzi Seçki Komissiyası tərəfindən avadanlıq və təbliğat-təşviqat materialları ilə təmin olunub. Hər bir məntəqədə seçicilərin dəqiqləşdirilmiş siyahısı asılıb.

Məntəqələrdə seçkilərin tam şəffaf, azad, ədalətli, demokratik və qanun çərçivəsində keçirilməsi, komissiya üzvlərinin normal fəaliyyəti üçün lazımi şərait yaradılıb.




**MÜŞFİQƏ**